# Bütün türk dünyasının möhtəşəm lideri

(Əvvəli 2- ci səhifədə).

Polad iradəsindən onu heç bir qüvvə döndərə bilmədi. Bir çox xarici neft şirkətlərinin iştirakı ilə inşa edilən Bakı—Tbilisi—Ceyhan neft kəməri, Bakı—Tbilisi—Ərzurum qaz kəməri öz bəhrələrini verməkdədir. Onun ideyası olan «İpək yolu»nun bərpası müvəffəqiyyətlə həyata keçirilir.

Respublikamızın hər yerində olduğu kimi, ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə Qəbələdə də iqtisadiyyatın yüksəlişinə, sosial inkişafın yaxşılaşmasına gedən yolun yeni mərhələsi başlandı.

1970—1982-ci illərdə rayonumuzda çox sayda məktəblər, səhiyyə ocaqları, şəhər və kəndlərdə ictimai və fərdi yaşayış binaları tikilib istifadəyə verildi. Bütün rayon, şəhər və kənd soveti icraiyyə komitələri üçün inzibati binalar, tütün fermentləmə zavodunu, ittifaq əhəmiyyətli turizm kompleksi tikilib istifadəyə verildi və müəssisələrdə çox sayda qəbələlilər daimi işlə təmin olundu.

Rayonda kənd təsərrüfatının, o cümlədən heyvandarlığın inkişaf dövrü başlandı. Onu demək kifayətdir ki, həmin dövrdə respublikada maldarlığın inkişafı üzrə kapital qoyuluşunun müəyyən hissəsi Qəbələnin payına düşürdü. Qəbələdə əsas vəsaitlər istifadəyə verildi. Rayonda böyük meyvəçilik, tütünçülük, üzümçülük təsərrüfatları, emal müəssisələri, zavodlar yaradıldı. O, cümlədən böyük konserv zavodu tikilib istifadəyə verildi,

Həmin dövrdə rayonda yol-tikinti işlərinə, yeni körpülərin quraşdırılmasına diqqət artırıldı. Selə qarşı mübarizə tədbirləri genişləndi. Selə qarşı mühafizə bəndləri tikildi. Ümumiyyətlə, Qəbələnin əsl inkişaf dövrü Heydər Əliyevin rəhbərlik illəri ilə bağlıdır.

Ulu öndər Heydər Əliyevin çox möhkəm yaddaşı və güclü yumoru var idi. O, çox səmimi insan, həm də çox ciddi rəhbər idi. O, həyatın hər bir sahəsini əsl mütəxəssis kimi mükəmməl bilirdi. Ulu öndər canlı bir akademiya idi. O, dövlətçiliyimizi dağılmaqdan, məhv olmaqdan xilas etdi. Bütün türk dünyasının möhtəşəm lideri olan ulu öndər həm də bəşəriyyətin ən görkəmli siyasi xadimi kimi dərin hörmət qazanmışdır. Ulu öndər xalqımıza həmişə bir yumruq kimi birləşməyi tövsiyə edirdi.

Nə qədər həyat var, onun haqqında şeirlər çox yazılacaq, bütün Türk dünyası onun irsindən hələ çox faydalanacaq.

Artıq indi o dahi insan həyatda yoxsa da, xalqımızın bir ümid yeri vardır. Bu, Heydər Əliyevin bizə qoyub getdiyi zəngin irsi, layiqli davamçısı siyasi liderimiz İlham Əliyev, onun şah əsəri olan müstəqil dövlətimiz və Heydər Əliyev dühasından qaynaqlanan, ölkəmizin birinci xanımı, xalqımızın böyük qayğıkeşi və sevimlisi Heydər Əliyev fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevadır,

**Aslan CƏLİLOV.**

# «Ölkəmizi tanıyaq» tur-aksiya— yaddaşlarda qalan tarixi təəssüratlar

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan və hər kəs tərəfindən bəyənilən "Ölkəmizi tanıyaq" layihəsi gənc və yeniyetmələrin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində, dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Bu layihə ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədi daşıyır.

16 noyabr 2015-ci il tarixdə Qəbələ şəhərindən başlanan tur Quba—Qusar—Xaçmaz istiqamətində davam etdirildi. Qeyd edim ki, məktəblilərimizə rəhbərlik etmək mənə həvalə olunmuşdu.

Yolüstü səyahətimiz qədim Şabran şəhərinin qalıqları ilə tanışlıqdan başladı. Vaxtilə Şimal-Şərqi Azərbaycanda Xəzər dənizinin qərb sahili ilə gedən dünya əhəmiyyətli ticarət yolu üzərində meydana gələn şəhərlərdən biri Şabran olmuşdu. Bu şəhərin xarabalığı hazırda Şabran rayonunun Şahnəzərli kəndi ərazisindədir. 1980-ci ildən şəhərin əsaslı öyrənilməsinə başlanmışdır. Qəbələ məktəbliləri ulu öndər Heydər Əliyevin 27 sentyabr 2003-cü ildə imzaladığı sərəncamla tarix və mədəniyyət qoruğu elan edilmiş qədim Şabran şəhərinin yerləşdiyi ərazi ilə tanış oldular. Burada qazıntılar zamanı aşkar edilmiş ictimai və yaşayış binalarının qalıqları, mədəni-məişət tikililərinin və xeyli istehsalat ocaqlarının qalıqları vardı.

Quba şəhərində şagirdlərimiz Heydər Əliyev Mərkəzinin qarşısında qarşılandılar. Həmin gün Qəbələ məktəbliləri Heydər Əliyev Mərkəzi və Gənclər Mərkəzində ulu öndər Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən fotostendlərlə tanış oldular. Sonra isə ümummilli liderin həyatından bəhs edən filmi izlədilər. Həmçinin uşaqlar gənclər mərkəzində rəsm, kompyuter, rəqs otaqları, xalçaçılıq sənəti ilə tanış oldular. Oyun otaqlarında keçirilən vaxt olduqca maraqlı idi.

"Cənnət bağı" istirahət mərkəzində yerləşdirilən uşaqların asudə vaxtı intellektual oyunlarla davam etdirildi.

Gəzintinin ikinci günü səhər yeməyindən sonra Qusar rayonundan "Şahdağ Qış-Yay Turizm Kompleksinə" yola düşdük. Məktəblilər kompleksin tikintisi haqqında verilən məlumatları dinlədikdən sonra buradakı otellə tanış oldular.



Nahar yeməyindən sonra Həzrə kəndində yerləşən "Şeyx Cüneyid" türbəsinə doğru yol aldıq. XVI əsrdə Azərbaycanda tikilən və Səfəvilərin yadigarı olan abidələrdən biri də Şeyx Cüneyid türbəsidir. Şeyx Cüneyid Şah İsmayıl Xətainin babası idi. O, XV əsrdə Şirvana etdiyi hərbi yürüş zamanı Şirvanşahlar tərəfindən öldürülmüş və Həzrə kəndində dəfn edilmişdir. Səfəvilər Şirvanda hakimiyyəti ələ aldıqdan sonra 1544-cü ildə Həzrə kəndindəki məzar üzərində türbə tikilmişdir.

Daha sonra məktəblilərin Qusar şəhəri ilə tanışlığı da çox maraqlı keçdi. Burada Heydər Əliyev Mərkəzində, Tarix-diyarşünaslıq muzeyində, Olimpiya İdman kompleksində və Rəsm qalereyasında olduq. Bayraq Meydanından rayonun panoramasını seyr etdik.

Səfərin III günü yenidən Quba şəhəri ilə tanışlıq davam etdi. Məktəblilər Quba Cümə məscidində, Qırmızı qəsəbədə, Quba xalça emalatxanasında oldular. Quba soyqırımı memorial kompleksinə ziyarət məktəblilərdə daha maraqlı təəssürat yaratdı. Ötən əsrin əvvəllərində erməni bolşevik silahlı dəstələri tərəfindən xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımlarından biri törədilmişdir. Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ilin may ayında ermənilər tərəfindən törədilmiş Quba əhalisi soyqırımının əyani sübutu olmuşdur. Memorial kompleks 2012—2013-cü illərdə inşa edilmişdir.



Şagirdlər tarix dərsliklərindən nəzəri öyrəndiklərini burada əyani şəkildə gördülər. Kompleksin ziyarəti onlara biliklərini genişləndirməyə və möhkəmləndirməyə kömək etdi.

Dağ yamacında yerləşən "Rixos" otelində keçirdikləri asudə vaxt məktəblilər üçün çox maraqlı və yaddaqalan oldu. Beynəlxalq əhəmiyyətli bu oteldə uşaqlar yaradılan bütün şəraitlə tanış oldular və imkanlardan istifadə etdilər. Otelin müasir memarlıq üslubu ilə tikintisi həqiqətən hər kəsdə xüsusi maraq doğurdu. Uşaq əyləncə mərkəzində zəngin oyunlar bir neçə saat davam etdi. Daha sonra uşaqlar Qolf meydançasında oldular.

Havanın soyuq olmasına, narın qar yağmasına baxmayaraq məktəblilər əylənməkdən yorulmurdular. Xınalıq yolundakı şəlalədə gəzinti də yaddaqalan oldu.

Hər kəs bu maraqlı dəqiqələri yadda saxlamaq üçün onlarla şəkil çəkdirir, gəzintiləri lentə alırdı.

(Ardı 4-cü səhifədə).